**Nərgiz CABBARLI**

*Filologiya üzrə fəlsəfə doktoru*
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
cabbarlin75@rambler.ru

# ÇİNGİZ AYTMATOVUN YARADICILIĞINDA İNSAN VƏ TƏBİƏTİN DİALEKTİKASI

1986-cı ildə böyük qırğız yazıçısı Çingiz Aytmatovun təklifi ilə planetin gələcəyi ilə bağlı qeyri-rəsmi fikir mübadiləsi aparmaq üçün dünyanın bir çox fikir, söz, qələm adamının iştirakı ilə "İssıqgöl" forumu təşkil edilir [1]. Humanitar sahədə məşhur olan bir çox insanlar – aktyor, yazıçı Piter Ustinov (Böyük Britaniya), Roma klubunun prezidenti A.Kinq, yazıçı, Nobel mükafatı laureatı Klod Simon (Fransa), rəssam, heykəltəraş Afeuork Tekle (Efiopiya), nasir, dramaturq Artur Miller, romançı, publisist Ceyms Bolduin (ABŞ), jurnalist, yazıçı Lisandro Otero (Kuba), yazıçı Yaşar Kamal (Türkiyə), "Müharibə və anti-müharibə" (1993), "İnqilabi var-dövlət" (2006) kitablarının müəllifləri Elvin və Heydi Toffler (ABŞ), "Dünya mədəniyyəti: yeni başlanğıc" kitabının (1999) həmmüəllifləri Auqusto Forti (İtaliya) və ictimai xadim Federiko Mayor (İspaniya) və bir çox digər yazarların toplaşdığı forum, ilk növbədə, qlobal bir problemə həsr edilmişdi: Yer kürəsində insanlar necə birlikdə və sülh şəraitində yaşaya bilərlər. Həmin tədbirlə bağlı Ç.Aytmatov deyirdi: "Biz bir çox problemlər haqqında danışdıq. Şübhəsiz ki, müharibələrin qarşısının alınmasının və əməkdaşlığın tərəfdarıyıq. İlk növbədə də, humanitar sahədə olan əməkdaşlığın... Müasir ədəbiyyat, incəsənət, fəlsəfə bu münasibətlərdə əhəmiyyətli rol oynaya bilər... Axı ikinci bir Yer kürəsi yoxdur ki, insanların heç olmasa bir hissəsi dünyamızda baş verən konfliktlərin və çətinliklərin əlindən qaçıb ora köçsünlər... Ona görə də planetimizdə qarşılıqlı razılaşma və sülh şəraitində yaşamaq bu gün üçün də, bundan sonrakı bütün zamanlar üçün də bəşəriyyətin yeganə alternativ seçimidir" [1].

Tək yazıçı yox, eyni zamanda da ictimai xadim kimi bəşəriyyətin, insanların diqqətini dünyanın qlobal problemlərinə yönləndirən Çingiz Aytmatov onları daha çox yaradıcılığında qabardırdı.

Həm də təkcə qabartmırdı, həlli yollarını da axtarmağa, qəhrəmanları ilə birlikdə tapmağa çalışırdı.

Çingiz Aytmatov bütün yaradıcılığı boyu türk düşüncə tərzini, türk ruhunu, psixologiyasını, düynaduyumunu və dünyaya yanaşma modelini təqdim edən bir yazıçı kimi fərqlənmişdir. O bütün dünyaya türk ruhunu təqdim etməyi bacarmış azsaylı və nadir türk yazıçılarındandır. Amma bununla bərabər, hətta bundan daha artıq dərəcədə onun əsərlərində bəşəriyyətə və onun qlobal problemlərinə maksimalist yanaşma mövcuddur. Dilindən, dinindən, yaşadığı məkandan, zamandan, dövlət quruluşundan və s. asılı olmadan İnsanın və Dünyanın problemi haqqında düşünmə, o problemi qaldırma bacarığı var bu yazıçının. Həm də birbaşa təqdimatla deyil, canlı situasiya yaratmaqla... Məsələn, onun türk ruhunun, təfəkkürünün, mənəviyyatının təqdimatçısı kimi təəssürat oyadan bir çox əsərlərini xatırlasaq, bütün bəşəriyyəti narahat edən, bütün insan övladlarının ruhuna, gələcəyinə və yaşamına toxunacaq böyük problemlər qaldırıldığını xatırlayarıq. Elə bircə manqurtlaşma məsələsi yetər ki, bu yazıçının cəmiyyətə, dünyaya, insana, təbiətə necə kənar bir rakursdan baxa bildiyi, necə böyük düşüncə arealına sahib olduğu meydana çıxsın.

"Aytmatov faktın estetikasını dərindən hiss etməyi, real həyatın hətta ən xırdalıqlarını belə böyük fəlsəfə kontekstində qəbul etməyi, adi hadisələri sosial hadisə səviyyəsinə qaldırmağı öyrədə bilən yazıçıdır. Onun estetikası təbiətin, incəsənətin ictimai təyinatı haqqında, yazıçının bədii ustalığı və səmimiyyəti, məzmun və formanın müxtəlif məqamları haqqında özünəməxsus anlayışlar sistemidir. Aytmatovun bədii ideyaları oxucuya dünyanı onun sosial kolliziyaları ilə birlikdə qəbul etməyi öyrədir. Bu kolliziyalar isə milli ədəbiyyatların yeni dünya və individ konsepsiyasına keçidini sürətləndirir" [2].

Aytmatovun ilk hekayəsindən – yapon uşağından bəhs edən "Qəzetçi Dzyuyo"dan başlayaraq... (1952), demək olar ki, bütün əsərləri ilk baxışdan xırda, fərdi, sıradan görünən problemlərin belə alt qatında qlobal müstəviyə qalxacaq böyük məsələlərin təqdimini verir. Müharibə, sülh uğrunda mübarizə, insan-şəxsiyyət problemi və onun müharibə ilə üz-üzə çıxan tərəfləri, yadlaşma problemi və s...





Aytmatov qaldırdığı bu problemlərlə, əslində, bəşəriyyətin laqeyd olduğu, əhəmiyyət vermədiyi bir çox məsələləri diqqət mərkəzinə çəkə bilib. Məsələn, "Əsrə bərabər gün" romanında (1980) Jolaman və Nayman obrazında juan-juan epoxasına aid problemdən danışılsa da, məsələnin mahiyyəti də, qloballığı da, aktuallığı da onu bu günlə – müasir dünya ilə əlaqələndirir. Məlum olduğu kimi, Juan-juan dövləti erkən orta əsrlərdə Mərkəzi Asiyanın ərazisində mövcud olmuşdur və özünün döyüşkənliyi, qəhrəmanlığı, qəddarlığı, düşmənlərinə və əldə etdiyi əsirlərə qarşı amansız münasibəti ilə məşhur olan bu dövlətdə insanlar manqurtlaşdırılır. Elm bu cür təcrübələrdən uzaq olduğu zamanlarda juan-juanlar insanların zombiləşdirilməsinin yollarını bilirlər. Şəxsiyyətin məhv edilməsinin və yaddaşın itirilməsinin necə əldə edildiyindən xəbərdardılar. Bir sözlə, dövrün hərbi qaydalarına uyğun olaraq öz əsirlərindən manqurtlar yaradırdılar. Bu qəhrəmanın həyatını əks etdirməklə yazıçı yalnız onun, təmsil etdiyi xalqın deyil, bir çox manqurtların və ümumiyyətlə, manqurtlaşdırılmanın qlobal problem kimi qaldırılmasına nail olur. Nə öz ata-analarını xatırlayan, nə tayfasını, nə də Vətənini yada sala bilən insanların yaradılması bəşəriyyətin məhvinə doğru aparan əsas problemlərdən biridir... Çünki insan genetikası ilə, yaddaşı ilə, vətənə, torpağa, anaya bağlılığı ilə insandır...

Ümumiyyətlə, Çingiz Aytmatov ədəbiyyatdan çox şey asılı olduğunu hər zaman iddia edib: "Həyəcanlandırmaq, insanda vicdanı, qəhrəmanlıq hissini, humanizmi oyatmaq, onun qarşısında bütün dünyanı sərmək ki, təki o insan olduğunu unutmasın... Yaddan çıxarmasın ki, onun mənəvi əhvalı bizim planetimizdə layiqli yaşamağın əsas faktorlarından biridir" [3].

Aytmatovun hansı əsərinə – "Ana tarla", "İlk durnalar", "Cəmilə", "Gün var əsrə bərabər", "Qiyamət", "Kassandra damğası"... nəzər salsaq, dünya üçün aktual olan qlobal problemlərin ifadəsinin şahidi olacağıq.

O, bədii ədəbiyyatda demək olar ki, ilk yazıçıdır ki, biosfer problemlərini, kosmos problemlərini, süni insan yaradılması problemini ədəbiyyata gətirib. "Ağ gəmi", "Kassandra damğası", "Əbədi gəlin" kimi əsrin romanları adlandırılan bu əsərlərdə məhz bundan bəhs edilir.

Son əsərlərindən olan "Kassandra damğası"nı Azərbaycan dilinə tərcüməsini bitirdikdən sonra bu böyük yazıçının bu istiqamətdə yürütdüyü düşüncə yolunda, demək olar ki, son kəşfi, qaldırdığı son əhəmiyyətli qlobal problemlər toplusuna həsr edilmiş romanı haqqında təəssüratımı, heyrətimi, düşüncələrimi qələmə almağa çalışdım.

Roman bir təbiət hadisəsinin təsviri ilə başlayır və elə ilk andaca bu hadisə – balinaların okeanda sürü ilə üzməsi və birlikdə intihara getməsi konfransa yola düşən bir futuroloq alimin – Robert Borkun yarıyuxulu, yarıreallıq vəziyyətində təyyarədən onları müşahidə etməsi fonunda təsvir edilir. Əvvəlcədən bu qeyri-adi hadisənin, normadan kənar sıçrayışın təsviri hansısa bir faciənin baş verdiyindən xəbər verir. Əlbəttə ki, intuitiv qatda. Bu hər nədirsə, simvolik olaraq oxucuya onun təbiətin adi axınından çıxdığını xatırladır. Çünki təqdim ediləcək hər olacağa, ona, ilk növbədə, elə təbiətin özü qarşı gedir. Öz intiharı ilə etirazını bildirir. Müəllif bununla oxucusunu vurulacaq böyük – qlobal bir zərbəyə hazırlayır...

Sonra bəlli olur ki, etiraz yalnız heyvanların etirazı deyil. Təbiətin bu etirazının altında dünyaya hələ doğulmamış embrionların ana bətnində ikən həyata gəlməkdən imtinası dayanır. Bu da intihardır və bu intihar hələ canlı olsa da, işıqlı dünyanı görməmiş, amma onu da, onda gedən dəyişiklikləri də, gələcək talelərini də əvvəlcədən hiss edən varlıqların səsini valideynlərinə – insanlara eşitdirmək istəyindən qaynaqlanır.

Kosmosda yaşayan bir ruhaninin – kosmik rahib Filofeyin yer üzünə göndərdiyi bir məktubu Amerikada – dünyanın ən qlobal ölkəsi və ən böyük gücü olan bir ölkədə "Tribyun" qəzetində dərc edilir. Açılan bir səhər bütün dünyanı bu xəbərlə çalxalayır. Nəinki həmin ölkənin vətəndaşlarını, az qala, bütün dünyanı ayağa qaldırır. Təbiətin bir parçası olan, amma təbiət qanunlarına zidd gedən insan övladının dünyanı nə dərəcədə məhvərindən oynatdığı, təbiət qanunlarını nə dərəcədə tərsinə çevirərək işlətdiyi, dünyaya və özünə nə dərəcədə böyük ziyan vurduğu romanın əsas mövzusu kimi meydana çıxır. Bütün bu ziyanların nəticəsi olaraq İnsan özü-özünə qarşı – Həyata qarşı durur. Elmi tərəqqi vasitəsilə hakimiyyət iddiasına düşür. Süni insan yaratmaq istəyir.





Filofey kosmosdan göndərilən şüalar altında hamilə qadınların bətnində olan embrionların ananın alnında qırmızı ləkə şəklində yanan damğa vasitəsilə dünyaya gəlmək istəmədiklərini deyir. Onun bu kəşfi bütün baş verənlərin arxasında siyasətin dayandığı nəticəsi ilə yekunlaşır (başqa cür desək, İnsanı Təbiətə qarşı qoyan da, elmi əlində gücə çevirmiş Siyasətdir!). Sən demə, dünyanın super güclərindən biri olan Amerikaya (onun qəzetlərindən birinə) məktub ünvanlayan Filofey rus tədqiqatçısıdır və KQB istəyi ilə hələ yerdə ikən süni insan yetişdirməklə məşğul imiş. Məqsəd kommunizm ideyasını heç bir maneəsiz bütün dünyada yaya biləcək, ailə, nəsil, milli-genetik bağlılıq duymayan "canlı maşınların" istehsalı imiş. Bu istəyini hər vasitə ilə reallaşdırmaq arzusunda olan kommunist hakimiyyət sonda bir elmi tədqiqatçının bu bacarığını siyasi maraqlarla dəyərləndirərək laboratoriya yaradır və böyük cəza müddəti almış qadın məhbuslardan inkub şəklində istifadə etməyə başlayır. Bütün bunlar Filofeyin kosmosda qələmə aldığı gündəliklər yerə çatdıqda bəlli olur. Lakin hadisələrin bu səbəbləri – başlama mənşəyi təqdim edilməmişdən əvvəl insan övladı dilemma qarşısında qoyulur: Nə etməli?

Əgər nəzərə alsaq ki, məktub, əslində, Roma papasına – dünyanın iki aparıcı dinindən birinin "rəhbəri"nə ünvanlanmışdı, o zaman dilemmanın necə böyük dərinlikdə təqdim edildiyini anlamaq çətin olmaz. Müəllif bu dünyaya insan gəlişini onsuz da əngəlləyə bilən Adəm övladına qarşı çıxan dinin (əslində, dini qurumların) öz gələcəyini bilən və buna etiraz edən embrionların dünyaya gəlmək istəyini (intiharını) necə qarşılayacağını sual olaraq meydana atmaqla, situasiyanı daha da gərginləşdirir, eyni zamanda da qloballaşdırır.

Bu xəbər bütün dünyanı silkələyir. İnsanlar küçələrə axışırlar. Cəmiyyəti çaşqınlıq bürüyür. Bu xəbəri duyanlardan və öz düşüncəsi etibarilə Filofeyin fikirlərini də, kəşfini də dəstəkləyənlərdən biri (həm də çox azsaylılardan biri) futuroloq alim Robert Borkdur.

Kataklizmin, fəlakətlərin insan övladının hər an başı üzərində olduğu, dünyanın hər an dağılmaqla qarşı-qarşıya dayandığı Robert Borkun düşüncələrində öz tədqiqini tapır. Balinaların kütləvi şəkildə - sürü ilə intihara getdiyi bir mənzərəni seyr edərkən yuxu ilə gerçəklik arasında keçiddə müşahidə olunan bu mənzərənin təəssüratın-

dan uzun zaman çıxa bilməyən alimin müşahidələri ilə Filofeyin kəşfi arasında maraqlı bir paralellik var. Bəşəriyyətin gedişatını, sonluğunu, sürükləndiyi qlobal ekoloji problemlərin hansı fəlakətlərə yol aça biləcəyini hiss etdikləri üçün balinalar kütləvi şəkildə intihara yol aldıqları kimi, hələ ana bətnində ikən dünyadakı talelərini, sonluqlarını hiss edən, qlobal və fərdi problemlərin varlığını dərk edən embrionlar da eyni şəkildə yaşama etiraz edir, dünyaya gəlməkdən boyun qaçırırlar. Bu embrion pessimizminin səbəbi onların öz aqibətlərini görmələri, dünyada nələrlə üzləşəcəklərini intuitiv olaraq hiss etmələridir.. Bu məqamda bu hiss etmə ilə bərabər başqa bir incə məqam – valideynlərin, ata-ananın dünyaya və insanlara münasibətdə törətdikləri əməllərin hələ dünyaya gəlməmiş övladların taleyinə müəyyən təsirinin olacağı fərziyyəsidir. ***"Həyatda heç bir əməl cavabsız qalmır"*** düşüncəsi meydana atılır. Əsərin təqdim etdiyi əsas ideyalardan biri, bəlkə də, birincisi elə budur: "Nəhayət ki, başa düşmək lazımdır: subyektin törətdiyi heç bir şər əməl fiziki olaraq onunla birlikdə bu dünyadan köçüb getmir. Onun bitən dövrü ilə yoxa çıxmır. Əksinə, genetika torpağında fatal toxum kimi öz yetişməsinin iks saatını gözləməyə başlayır".

Bu isə o deməkdir ki, insan övladı nəsil-nəsil öz əməllərinə görə cavab verməlidir. Onun günahı övladının, nəvəsinin, nəticəsinin... boynunda yük olaraq qalacaq.

Filofey kosmosda bu kəşfin və gerçəkliyin ifadəçisi, cəmiyyətə çatdırıcısıdırsa, Robert Bork da yer üzündə eyni problemi dərk edən və yol göstərərkən sağlam düşüncəni müdafiə edən alimdir. Bunu onun düşüncələrini müdafiə edən Entoni Yunger haqqında da söyləmək olar.

Roman yalnız bu problemi deyil, eyni zamanda da keçmiş SSRİ-də yenidənqurma dövrünü, kütləvi silahlandırmaya qarşı hərəkatı, bu işə böyük insan qüvvələrinin cəlb edildiyini və əgər silahsızlaşdırma prosesi başlayarsa, necə sosial bir partlayışın baş verə biləcəyini, nə qədər adamın işsiz qalacağını və s. də problem olaraq qaldırır. Amerikada meydana çıxan kütləvi iğtişaşlar (təbiətdə balinaların intiharı ilə eyni zamanda) SSRİ-də də və bir çox başqa ölkələrdə də (amma xüsusilə SSRİ-də, çünki müəllifin bu iki supergücü qarşı-qarşıya qoymaq, eyni zamanda da paralellər aparmaq istəyi çox üzdədir) meydana çıxmaqla, dünyanın necə qlobal bir axın içərisində olduğunu xatırladır. Hadisələrin bir-biri ilə əlaqəsini təqdim edir.

Romanın başqa bir qatında torpağa dəfn edilmədiyi üçün (eyni zamanda da sağ ikən törətdikləri əməllər üzündən) Qırmızı meydanda ruhları dolaşan sovet liderlərinin – Stalinin və Leninin xəyalatları arasında gedən söhbətlər və gecələr səyahətə çıxan bayquşun bütün bu hadisələrin şahidinə çevrilməsi, hətta müəyyən məqamda buna dözməyərək hönkürüb quruldaya-quruldaya ağlaması və s. təsvir edilir. Kütləvi iğtişaşların, mitinqlərin (söhbət 90-cı illər hadisələrindən gedir) təsviri, silahsızlaşdırmaya qarşı çıxan insanlarla məhz bu sənayedə çalışdıqları üçün ailələrini dolandıran adamların üz-üzə gəlməsi, çıxışçılardan – əlindəki plakata "Əgər Kreml silahlandırma yarışını bərpa etsə, mən özümü yandıracağam!" – yazan bir qızın yandırılması (özünü yandırması deyil, yandırılması!) və s. oxucunu dövrün tanış hadisələrinə doğru aparır. Zaman, mühit, professionalcasına və dəqiq təsvir edilir. Eyni zamanda çox fərqli dünya prosesləri və liderləri xatırladılır: "Fidel – biz səninləyik!", "Ya sosializm – ya ölüm!", "Səddam – sən bizim qardaşımızsan!", "Səddam – sən bizim qardaşımızsan!", "Qədda – Qəddafi!", "Qədda-qədda-Qəddafi!", "Eşq olsun Stalinə!" kimi şüarlar bunun üçün vasitəçi olur. Müəllif əlavə heç bir vasitəyə əl atmadan, sadəcə, plakatlarla fərqli problem qaynaqlarını bir müstəviyə gətirir.

Təsvirin maraqlı və orijinal cəhəti bu hadisələrin şahidi olanların təkcə canlı insanlar deyil, həm də hər gecə ruhları bu meydanı dolaşan liderlər olmasıdır... İki qütb arasında paralellik Moskvada – Qızıl meydanda yandırılan qızla eyni vaxtda Amerikada öldürülən futuroloq vasitəsilə də meydana atılır. Siyasətçi dostu, prezidentliyə namizədliyini vermiş və məqamdan (bütün siyasətçilər kimi) siyasi divident kimi yararlanmağa çalışan Oliver Ordok onu zərbə altına qoyur və azğınlaşmış kütləyə, çaşmış insanlara futuroloqu yem kimi, qurban kimi atır. Filofeyin yer üzündə davamçısı kimi təqdim etməsi bunun üçün yetərli olur. Bu, həqiqət idi. Amma hər zaman olduğu kimi, burada da həqiqətin necə təqdim edildiyi və təqdimatçısı böyük rol oynayır. Beləcə, azğınlaşmış kütlə Borku öldürür.

Romanın ən maraqlı cəhətlərindən biri dünyanın iki super gücü – SSRİ ilə Amerika arasında hadisə paylaşımıdır. Bundan başqa, embrionların dünyaya gəlməkdən imtina etməsi kəşfinin keçmiş

bioloq alim olan bir rusa aid olmasıdır. Amma həmin rus məktubu SSRİ məkanında deyil – Amrikada dərc olunan bir qəzetdə çap olunmaq üçün əvvəlcə Roma papasına, dolayısı iləsə Amerika vətəndaşlarına ünvanlayır. Bununla da bu iki dünya – dövlət qarşı-qarşıya gətirilir.

Aytmatovun embrionların doğulmaq istəməməsi faktına cavab kimi, çıxış yolu kimi ilk baxışdan ortaya qoyulan abortlara da "yox "deyir. Onun irəli sürdüyü variant təfəkkürün, düşüncə tərzinin, həyata və təbiətə münasibətin dəyişdirilməsidir. İnsan hara getdiyini, nə etdiyini düşünmək üçün özünə "Dur!", – deməli, dayanmalıdır!

Romanda insanın öz əməllərinə, öz hərəkətlərinə görə bir gün mütləq cavab verməli olduğu ideyası səslənir. Bu ideyanın nəticəsidir ki, bir zamanlar az qala dünyanın yarısına hökmranlıq edən, insanları öz ideoloji istiqamətlərində sürükləyən rəhbərlərin də ruhları sakitləşmək, öz dünyalarına çəkilmək iqtidarında deyil. Onlar cəza kimi iki dünya arasındakı zülmətdə dolaşmaqda və əzab çəkməkdədirlər.

Problemin daha bir maraqlı yönü var: Kassandra damğasını kəşf edən Filofeyin – Andrey Krıltsovun özünün atasız, anasız, atılmış bir uşaq olması da təsadüfi deyil. Kökünün olmamasına baxmayaraq, dünyaya hökmranlıq istəyində olan bu bioloq alim sonradan həqiqəti dərk etdiyi üçün kosmik rahibə çevrilir. Çünki romanın əvvəlində o elə bir gücə malikdir ki, "hansı uşağın hansı valideyndən, necə dünyaya gələcəyini belə qərar vermək iqtidarında olan alimdir". Qadın-inkubatora olan münasibəti, ona: "Sənin yerinə inkub olmağı arzu edən onlarla qadın tapa bilərik", – deməsi dünyaya insan gətirilməsi prosesinə necə mexaniki bir münasibətdə olduğunu göstərir. Runanın isə: "dəhşət də bundadır", – cavabı faciənin böyüklüyünü və həll olunması üçün kütləvi şüur dəyişməyin ehtiyac olduğunu meydana çıxarır.

Sonradan məhv etdiyi qadının qarşısında günahını yumaq üçün və öz yanlışlığını başa düşdüyündən Krıltsov kosmik monaxa çevrilir.

Onu da deyək ki, Krıltsovun apardığı təcrübələr dəstələrlə, ordularla manqurtların yaranması məsələsini aktuallaşdırmış olur ki, bu problem, Çingiz Aytmatov yaradıcılığının ən aktual problemlərindən biridir.





Krıltsovun romanda şəxsi faciəsi də var. Onun həyatı da sevdiyi, amma ondan uşaq istəmədiyi üçün abort etdiyi qadın da, sonradan bircə dəfə görüşsə də, aşiq olduğu və ona həqiqəti söylədiyi üçün vurulduğu Runanın taleyi də faciəli sonluqla bitir. Rahib Filofeyin başına gələnləri əks etdirməklə Aytmatov bəşəriyyətə xəbərdarlıq edir: Təbiətin qanunlarını pozmayın, o qanunlardan kənara çıxmayın, onu məhv etməyin. Özünüz məhv olacaqsınız.

Bu roman dünyanın bir sıra qlobal və aktual problemlərini qaldırmaqla İnsan övladını düşünməyə, həm də çox dərindən düşünməyə vadar edir. Eyni zamanda yazıçının bəşəriyyətə ünvanladığı böyük bir xəbərdarlıqdır.

Roman Filofeyin xatirələri (əslində bitmə nöqtəsi onun hər kəsin gözləri qarşısında – canlı yayımda açıq kosmosa çıxaraq intihar etməsi idi) ilə tamamlanır. Bu xatirələr isə etdiyi hərəkətin Tanrıya (Təbiətə) qarşı getmək olduğunu onun üzünə deyən məhkum bir qadının – sevdiyi qadının ölümü ilə, Filofeyin bu bir günlük sevginin ağrısı ilə qovrularaq hönkürməsi ilə tamamlanır: "Mən öz kabinetimdə oturub hönkürürdüm. Cəmi bircə dəfə gördüyüm qadına görə hönkürürdüm... Mən başa düşürdüm ki, onsuz bütün geridə qalan həyatımda bədbəxt olacağam"...

Bu silkələnmə (sevgi hər zaman insanı oyadır – sözün bütün anlamlarında) onu həqiqəti görməyə, dərk etməyə vadar edir (məhz bundan sonra o tədqiqatlarını kosmosda davam etdirir. Digər tərəfdən də yerdə aparılan eksperimentlər yarımçıq qalır, çünki SSRİ dağılır, KQB bir sistem kimi fəaliyyətsizləşir). Filofeyin xatirələri (elə romanın son akkordları da) faktla üz-üzə dayanmış qəhrəmanın düşüncələri ilə sonlanır: "İndi Yer üzündə olub bizim laboratoriyanın təcrübələri əsasında dünyaya gətirilmiş o uşaqların gözlərinə baxmaq istərdim. Mən niyə bu barədə yazıram? Çünki bizim etdiyimiz hər nə idisə, düzəldilməsi mümkün olmayan bir şeydir. Bu insanların aqibəti necə olacaqdı? Axı bir gün onlar kim olduqlarını başa düşəcəkdilər?! Onlar cəmiyyətə hansı hərəkətləri ilə cavab verəcəkdilər?"

Romanda daha bir məntiqi sonluq: müharibə övladı olan, faşist bir atanın (almanlar Stalinqrada qədər gəlib çıxdıqları zaman) rus qızından dünyaya gələn, lakin ananın onun təzyiqlərə məruz qalmaması üçün uşaq evinin qapısı ağzına qoyduğu atılmış övlad (elə Fi-

lofeyin özü də iks nəsil idi) öz "soysuzluğu" üçün dünyadan bu şəkildə qisas almışdı – süni insan yetişdirilməsi ilə.... Gələcək "iks nəsil"lər hansı şəkildə qisaslarını reallaşdıracaqlar – bu hələ qarşıda duran çox böyük bir sualdır?

Böyük qırğız yazıçısı Çingiz Aytmatovun bu romanı həm də o səbəbdən dəyərlidir ki, bütün bu həqiqətləri əsl yazıçı təqdimatında, əsl mütəfəkkir modelində qarşımızda canlandırmaqla oxucuya yalnız gözəl bir ədəbi nümunə təqdim etmir, eyni zamanda da qarşıda onu gözləyən fəlakətlərin – şərə görə şər, xeyirə qarşı xeyir! – proqnozunu verir.

Bu romanda da Aytmatovun əsas ideyası - insanın təbiətlə ahəngdə, ona qarşı getmədən, onunla uyumda yaşamalı olması irəli sürülür. İnsanın təbiətin bir parçası olduğu xatırladılır. Təbiət-insan birgəliyinin qorunması İnsanın da, Təbiətin də, Dünyanın da, hətta Kosmosun da yeganə xilas yolu kimi göstərilir.

Aytmatov bir yazıçı olaraq dünyanın qlobal problemlərini əsərlərində yalnız əks etdirməsi ilə deyil, eyni zamanda da çözümünü və həllini göstərməsi ilə də öz fərqliliyini və böyüklüyünü sübut etmiş yazıçıdır.

## ƏDƏBİYYAT


1. Брусиловский Денис Александрович. Философия Чингиза Айтматова как новая сущность межкультурного и межрелигиозного диалога в едино-цельной социально-планетарной системе. Философские науки № 11 (73) 2016, часть 2.
2. Академик Абдылдажан Акматалиев. Художественный мир Ч.Айтматова. http://bizdin.kg/static/media/pdf/hudmir-aitmatova.pdf
3. Айтматов Ч. Т. Статьи, выступления, диалоги, интервью. М.: Изд-во Агентства печати «Новости», 1988.
4. Aytmatov Ç. Seçilmiş əsələri.1-ci cild. Bakı, "Öndər" nəşriyyatı, 2004.
5. Aytmatov Ç. Seçilmiş əsələri. 2-ci cild. Bakı. "Öndər" nəşriyyatı, 2004.






**Nargiz Jabbarly**

## THE DIALECTICS OF HUMAN AND NATURE IN THE CREATIVITY OF CHINGIZ AITMATOV

### SUMMARY


In the article "The Statement of Global Problems in the Work of Chingiz Aitmatov" by the Doctor of Philosophy in Philology Nargiz Jabbarly, it is told about the global problems of the modern world that were considered in the works of the great writer of the Kyrgyz people – Chingiz Aitmatov, how people are separated from the moral and genetic roots, artificial insemination, , the opposition of human and nature, etc.

One of the last works of Ch.Aitmatov – novel "Tavro Kassandra" is devoted to the problem of creating artificial people. The novel notes that, people's actions leave a trace in space, and all of these necessarily affect his own destiny, the fate of his children. The study explores ways to solve these problems, proposed by the writer, as well as the role of the writer in the life of society.


**Наргиз Джаббарлы**

## ДИАЛЕКТИКА ЧЕЛОВЕКА И ПРИРОДЫ В ТВОРЧЕСТВЕ ЧИНГИЗА АЙТМАТОВА

### РЕЗЮМЕ


В статье повествуется о таких глобальных проблемах современного мира, которые рассматривались в произведениях великого писателя киргизского народа Чингиза Айтматова, как оторванность людей от нравственно-генетических корней, искусственное оплодотворение, манкуртство, противостояние человека и природы и т.п.

Одно из последних произведений Ч.Айтматова роман «Тавро Кассандры» посвящено проблеме создания искусственных людей. В романе отмечается, что деяния человека оставляют след в космосе и все это обязательно влияет на его собственную судьбу, на судьбу его детей. В исследовании изучены пути решения этих проблем, предложенные писателем, а также выявлена роль писателя в жизни общества.